

Adil BABAYEV

## Dünyaya yadigar

Qara gözlərinin seyrinə dalmaq,
Mənim ən səfalı səyahətimdir.
Eşqinlə döyünən yanar bir ürək,
Sənə gəncliyimdən əmanətimdir.

Ömür kitabımda qızıl sətirsən,
Günümə, ayıma çökən ətirsən.
Mənə kədər deyil, sevinc gətir sən,
Adi bəxşişin də şan-şöhrətimdir.

Könlüm mələr düşər az görüşəndə,
Nərmin əllərimdən iraq düşəndə.
Sənsiz göy çəməndə, dağlar döşündə,
Gözlərin yaşlıdır, qəlbim yetimdir.

Bilmirəm dövranda bu gərdiş nədir?
Adilə gah sevinc, gah qəm bəxş edir,
Günlərim, aylarım köç edib gedir,
Dünyaya yadigar məhəbbətimdir.

## Sözlərin kökü

Bəzən iş otağıma çəkilib bütün günü,
Axtarıram sözlərin, kəlmələrin kökünü.
Öyrənmək istəyirəm diqqət ilə, səy ilə,
Sözlər necə yaranıb, hardan gəlibdir dilə.

Lüğətlər kömək etmir, qamuslar gəlmir kara,
Deyirəm öz-özümə: ürəkləri sən ara.
Talelər kitabında mənası var hər sözün,
Hər həsrətin, vüsalın, hər gecənin-gündüzün.

Düşünürəm: zindanda azadlıq boğulanda,
Körpələrlə gözəllik bir yerdə doğulanda,
Azadlıq həsrətiylə yanan zaman Vətənim,
Yəqin, ”azadlıq” sözü dilimə gəlmiş mənim.

İnsanlar sürüləndə yurdundan diyar-diyar,
Yəqin, ”Vətən” sözünü qürbətdə yaratdılar.
Vətən oldu onların arzusu, düşüncəsi,
Meyvələrin nübarı, çiçəklərin qönçəsi.
Ocaqların tüstüsü,
Təndirlərin istisi,
Çinarların vüqarı xəyala gələn zaman
Yarandı ”Vətən” sözü qəriblərin ahından.

Bilirəm torpağımın sevinci var, yası var,
Onun gözünün dağı hicranlı Arazı var.
”Həsrət” sözü Arazın yaranıb sularından,
Axı, bu torpaqdakı daşın da, çinarın da
Kökü Arazdan keçib, o taya adlayıbdır.
Araz əvvəl çay idi
İndi həsrət olubdur, qəlbləri odlayıbdır.

Nə qədər yol getmişik Günəşin sorağında?
Bir vaxt oda sığınan yurdumun torpağında
İşığa həsrət qalıb illər boyu nəsillər,
Səmum nəfəsli aylar, ölüm nəfəsli illər.

Söndürüb evlərdəki neçə odu, ocağı,
İnsan olub cansıxan qaranlığın dustağı.
Kim bilir, bəlkə, onda
Ürəklər bir çırağın həsrətiylə yananda
”İşıq” sözünü ilkin dilə gətirmişik biz,
Arzunun işığıyla ”işıq” gəzib nəslimiz?
Bəlkə, ”ümid” sözü də uzaq bir çıraq kimi,
Elə o vaxtlar yanıb,
Ya zülmətdə doğulub, ya zindanda yaranıb?

Ayaqlar buxovlanıb, əllər zəncirlənəndə,
Fələkət üstümüzdə bayquştək hərlənəndə,
Ölüm dayanan zaman qaşla-göz arasında,
Bəlkə, bir cəngavərin ümidsiz yarasında,
Bəlkə, ölüm anında ümid gözləyən gözdə
Ümid də yaranıbdır ”ümid” ünvanlı sözdə?

Bəzən iş otağıma çəkilib bütün günü
Axtarıram sözlərin, kəlmələrin kökünü.
Məncə, hər söz yaranıb bir arzudan, diləkdən,
Sözlər də məcrasını alır yanan ürəkdən!

***

Bizi ölüm ilə qorxudur zaman,
Şeirim tab edərmi bu ağır dərdə?
Nə üçün ömrünü qorumayırsan,
Daha etibarlı, möhkəm bir yerdə?

Görürsən, nə qədər bakirə gül var,
Gəncliyin bahardır, qoru ruhunu.
Qəlbini, hüsnünü sevgi yaşadar,
Nə fırça, nə qələm bacarmaz bunu.

Hər şeyi yenidən yaradır həyat,
Gəl öz gəncliyini ver məhəbbətə.
Sevgiylə, sevdayla aç ki qol-qanad,
Səni qovuşdursun əbədiyyətə.

Versən öz ömrünü övladına sən,
Onun varlığında ömür sürərsən.

## Ayrılıq olmasaydı

Heç zaman solmazdı o tər çiçəklər,
Ümmana dönərdi sevən ürəklər,
Bir insan bilməzdi, nədir qəm-kədər,
Şəfəqli nəğməyə dönərdi aləm,
Ayrılıq olmasaydı, ayrılıq olmasaydı

Vaxtsız dən düşməzdi şəvə saçlara,
Analar ömründə geyməzdi qara,
Bir dildə olmazdı ”həsrət” kəlməsi,
Bir evdən çıxmazdı hıçqırıq səsi,
Ayrılıq olmasaydı, ayrılıq olmasaydı

Görünməzdi bu yol yorucu, uzun,
Gülərdi çöhrəsi gəlinin-qızın,
Yaz fəsli açılan çiçəklər kimi
Əbədi saxlardım səadətimi,
Ayrılıq olmasaydı, ayrılıq olmasaydı

## Mən dünyada olmayanda

Qarlar, buzlar əriyəcək,
Çöllər yaşıl don geyəcək,
Bir şair də mənim kimi
Öz yurdunda söz deyəcək,
Mən dünyada olmayada.

Qəlbində bir xoş intizar,
Xəyalında - işıq, bahar,
Gələcəyin vüsalıyla
Çalışacaq bu insanlar,
Mən dünyada olmayanda.

Ömrüm Aya, Günə sirdaş,
Ağarır saç, çoxalır yaş,
Bircə kəlməm, bircə sözüm
Ürəklərdə qalaydı, kaş,
Mən dünyada olmayanda

***

Deyirsən əl götür bu inadından,
Çıxart birdəfəlik məni yadından.
Mən qüvvət alarkən sənin adından
Könlüm gözlərindən kənarmı olsun?

Tək sənsən ömrümün hüsnü, zinəti,
Qoyma xar olmağa ilk məhəbbəti,
Ey ana yurdumun zərif xilqəti -
De, eşqim baharmı, xəzanmı olsun?

## Gəncliklə görüş

Ata həsrəti,
ürəyin tükənməz məhəbbəti.
Ölüm, hicran,
yaralardan axan qan.
Dumanlı, işıqlı səhərlər,
verilən, alınan şəhərlər.
Çörək azlığı,
diqqət qıtlığı.
Rəftarın sərtliyi,
Ümidin bolluğu.
Bir dünya yorğunluq,
Bir qətrə dinclik ...
Salam, mənim gəncliyim,
Salam, cəfakeş gənclik!

Ədalət .- 2025.- 12 dekabr (№47).-S.14.